Aqrar Xidmətlər Agentliyi

# Pambıq Sovkası

## (Helicoverpa armigera)(Hübner)



088-588
axa.gov.az

# Zərərverici haqqında

Pambıq sovkasının tırtılı, əsasən qönçə, çiçək, qoza başlanğıcı və qozalara zərər vuraraq, məhsulun əhəmiyyətli dərəcədə azalmasına səbəb olur. Daxildən yeyilmiş qönçələr tökülür. Zədələnmiş çiçəklərin əksər hissəsi qoza vermir, bəziləri böyümədən qalır, qozalarda lifin keyfiyyəti pisləşir. Pambıq sovkası torpağın 4-10 sm dərinliyində pup fazasında qışlayır. Bir dişi kəpənək 500-3000-ə qədər yumurta qoya bilir. Pambıq əkinlərində sovka 3 nəsil verir.

# Mübarizə tədbirləri

**Aqrotexniki mübarizə:** Qış şumu və qış suvarması aparılmalı, sovkaya davamlı sortlardan istifadə olunmalı,

Cərgəarası kultivasiya aparılmalı, kolların dibi kətmənlənməli, normaya uyğun yemləmə gübrəsi verilməli,

Pambıq kollarında ucvurma vaxtında həyata keçirilməli və bitki qalıqları sahədən çıxarılmalıdır
**Bioloji mübarizə:** Sovkanın təbii düşmənləri trixoqramma və habrobrakon kimi faydalı həşəratlardan istifadə edilir
Trixoqrammanın sahəyə 1-ci buraxılışı feromon tutucularda 2-3 kəpənək müşahidə edildikdən 5-6 gün sonra, 2-ci buraxılışı isə birincidən 6-7 gün sonra həyata keçirilir
Hər nəslə qarşı 3-4 dəfə və hər hektara 60-70 min fərd olmaqla trixoqramma tətbiq edilir
Hər nəslə qarşı 3 dəfə və hər hektara 0.5-2.0 min fərd olmaqla habrobrakon tətbiq edilir;



# Yetkn fərd